MahadSunnah

هيثم سرحان

# المسيح الدجال

# MƏSİH DƏCCAL

**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

# MƏSİH DƏCCAL

Qeybdə olan və gözlənilən ən şərrli varlıq

Adəmin yaradılışından qiyamətə qədər yer üzündə olan ən böyük fitnə.

Elə bir peyğəmbər göndərilməyib ki, öz qövmünü bundan xəbərdar edib onları bundan çəkindirməsin.

O, tək gözlü dəccaldir. Yalan və aldatmaqla ilahilik iddiasındadır.

Peyğəmbər ﷺ buyurub:

“Mən yaşadığım vaxtı o üzə çıxarsa, mən sizi ondan qoruyacağam. O üzə çıxan vaxtı mən olmasam, hər bir kəs özünü ondan qorumağa çalışsın. Mənim yoxluğumda Allah hər bir müsəlmanı himayə edəcəkdir”. [1]

Onun xüsusiyyətləri:

- “O, alnından saçları çəkilmiş, gözləri arasında kafir yazılan, qısa boylu, enli qırmızı kişidir.
- Onu hər bir müsəlman oxuma-yazma bilən də bilməyən də onu oxuyacaq.

---

[1] Muslim 2937

- Onun xüsusiyyətlərindən biri də sağ gözü silinmiş olmasıdır. Sanki o gözü,  solmuş üzüm kimidir.
- Qısırdır, onun övladı olmur”[2]

Dəccalın üzə çıxışı qiyamətin böyük əlamətlərindən biridir. “Onun üzə çıxışı Xorasanın şərq tərəfindən olacaq. Onun ardınca yetmiş min İsfahan yəhudisi gedəcək.

Sonra şam və İraq arasından ərəb yarımadalarnın içi ilə yola düşərək, pis niyyətlə Məkkə və Mədinəyə doğru gedəcək. Mələklər də qılıncları ilə onun qarşısını kəsəcəklər.”[3]

Və onun fitnəsindən biri də odur ki, o, insanların ona inanacaqları bir məhəllədən keçdiyi zaman, göyə əmr edəcək yağış yağacaq, yerə əmr edəcək yer cücərəcək və onların mal-qarası doyana kimi otlayacaqlar. İnsanların ona inanmayacağı məhəllədən keçdiyi zaman, o, onlardan üz döndərəcək, onlar mal-mülkdən məhrum olacaqlar və əllərində heç bir mülk qalmayacaq.[4]

Və onun böyük fitnəsindən biri də odur ki, onu sifətindən və vəsflərindən tanıyan, bir gənc mömin onun yanına çıxıb deyəcək:

“Mən Şəhadət edirəm ki, sən Peyğəmbərin ﷺ hədislərində bizə xəbər verdiyi dəccalsan.

---

[2] Buxari və Muslim
[3] Muslim 2942
[4] Muslim2937

Dəccal deyəcək: Əgər siz görsəz ki, mən bunu öldürüb sonra dirildirəm, mənə şübhə edərsiz? Onlar deyəcəklər: Xeyr.

O onu öldürəcək sonra dirildəcək.

Gənc mömin dirildiyi zaman ona deyəcək:

Allaha ﷻ and olsun, heç vaxt sənin haqqında indiki qədər bəsirətli olmamışam (Yəni dəccal olmasına tam əmin olur).

Dəccal onu öldürmək istəyəcək, amma buna gücü çatmayacaq”.[5]

Dəccal sürətlə sağda-solda fəsad törətməklə məşğul olduğu zaman, Məryəm oğlu İsa (əleyhissalam) yerə nazil olub onu ələ keçirəcək. Allahın ﷻ düşməni onu gördüyü zaman duzun suda əridiyi kimi əriyəcək.

Əgər Onu tərk etsəydi, həlak olana qədər əriyəcəkdi, amma Allah ﷻ onu onun əli ilə öldürür və nizəsindəki qanını insanlara göstərir.[6]

Dəccal və onun fitnəsindən qorunmaq üçün bir neçə səbəb var:

- İslamdan möhkəm yapışmaq və imanla silahlanmaq.
- Allahı ﷻ ad və sifətləri ilə tanıyıb onun hər bir qüsur və nöqsanlardan uzaq olduğunu bilmək.

---

[5] Buxari və Muslim

[6] Muslim 2897

- Kəhf surəsinin əvvəlindən və ya sonundan on ayə əzbərləmək.

Peyğəmbər ﷺ buyurub:

“Kim Kəhf surəsinin ilk on ayəsini (və ya son on ayəsini) əzbərləyərsə, Dəccaldan qorunar”.[7]

- Dəccalın fitnəsindən Allaha ﷻ sığınmaq. Xüsusən də namazın sonunda təşəhhüd bitdikdən sonra.

Peyğəmbər ﷺ buyurub:

“Sizdən biriniz təşəhüddə ikən dörd şeydən sığınıb belə desin:

Allahım! Cəhənnəm əzabından, Qəbir əzabından, həyatın və ölümün fitnəsindən, məsih dəccalın fitnəsinin şərindən Sənə sığınıram!”[8]

[7] Muslim 809
[8] Muslim 588